DOI: 10.36719/AEM/2007-2020/54/16-20

**Rauf Rafiq oğlu İbrahimov**
Bakı Dövlət Universiteti
rauf-ibrahimov-90@mail.ru

# MÜRƏKKƏB ZƏRFLƏRİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *mürəkkəb zərflər, sintaktik, dilçilik, struktur*
***Key words:*** *compound adverbs, syntactic, linguistics, structure*
***Ключевые слова:*** *сложные наречия, синтаксический, лингвистика, структура*

## Giriş

Dilimizdə söz yaratmanın əsas qollarından biri sintaktik yolla söz yaratmadır. Sintaktik yolla söz yaratma zamanı leksik mənaya malik olan ən azı iki sözün birləşməsi nəticəsində yeni bir leksik vahid yaranmış olur. Sintaktik yolla yaranan sözlər dilçilikdə mürəkkəb sözlər adlanır. Mürəkkəb sözlərin çoxluq təşkil etdiyi nitq hissələrindən biri də zərfdir. Mürəkkəb zərflər zərf qrupu içində həm həcmi, həm də yaranma yollarının müxtəlifliyi ilə diqqət çəkir. Bundan başqa əsas problemlərdən biri kimi ayrı yazılan mürəkkəb zərflər barədə yekun fikrin olmaması və problemin hələ də həll olunmaması mövzunu daha da aktual edir.

Zərf əsas nitq hissələrindən biri olmaqla özünəməxsusluğu ilə seçilən bir nitq hissəsidir. Mürəkkəb zərflər də zərfin quruluşca növlərindən biri olmaqla zərfi təşkil edən söz qrupu içində əhmiyyətli yer tutur. Azərbaycan dilçiliyində mürəkkəb zərflərə müxtəlif təriflər verilmişdir. Bunlardan bir neçəsini qeyd edə bilərik. M.Hüseynzadə mürəkkəb zərflərin iki eyni və ya müxtəlif sözün birləşməsi yolu ilə yarandığını qeyd edir. [1, s. 204] Ə.Şükürov mürəkkəb zərflərin sözlərin təkrarlanaraq qoşalaşması və ya birləşməsi yolu ilə düzəldiyini yazır. [2, s. 400] S.Cəfərov mürəkkəb isim və sifətlər kimi mürəkkəb zərflərin də tabesizlik və tabelilik əlaqəsi əsasında formalaşdığını göstərir. [3, s.183] B.Xəlilov mürəkkəb zərflərin iki sözün birləşməsindən yarandığını bildirir. [4, s.287] Bu təriflərə baxdıqda mürəkkəb zərflərin necə yarandığının müxtəlif cəhətlərdən izah olunduğunu görürük. Ancaq bir şeyi bildirmək istərdik ki, mürəkkəb zərflərin, ümumiyyətlə, nitq hissələrinin hər birinin mürəkkəb formalarının özünəməxsus düzəlmə yolları var. Bu düzəlmə yollarını nəzərə alsaq, bütün bunların tərifdə yer almağının doğru olmadığını görərik. Sadəcə olaraq mürəkkəb sözlərin ən az iki sözün birləşməsindən yarandığını nəzərə alıb B.Xəlilovla razılaşa bilərik. Bir şeyi də qeyd edək ki, burada işlənən **birləşmə** sözü sözlərin bir-birinə yazıda bitişik yazılmasından getmir, **birləşmə** sözü ümumi anlayış kimi özünü göstərir. Beləliklə, mürəkkəb zərflər iki sözün məna və qrammatik cəhətdən, yəni struktur-semantik baxımdan birləşməsi və sabitləşməsi nəticəsində yaranır. Azərbaycan dilində mürəkkəb zərflər xüsusi yer tutur və yaranma formalarına görə zənginliyi ilə seçilir. Dilimizdə olan mürəkkəb zərfləri bu baxımdan aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bitişik yazılan mürəkkəb zərflər
2. Defislə yazılan mürəkkəb zərflər
3. Ayrı yazılan mürəkkəb zərflər

### 1.Bitişik yazılan mürəkkəb zərflərin struktur-semantik xüsusiyyətləri

***1.1 Müxtəlif mənalı sözlərin birləşməsi yolu ilə yaranan mürəkkəb zərflər:***

a) **Gözucu, dilucu, ağızucu, addımbaşı, atüstü, yolüstü, sözarası** və s. Tərəfləri isim-isim, isim-zərf formasında olan, struktur baxımdan ikinci növ ismi birləşməni xatırladan, semantik cəhətdən məcazi mənalı mürəkkəb tərzi-hərəkət zərfləri. Fəxrəddin **ağızucu** dedi: ... (M.S.Ordubadi) Buzovnada magistral yolun kənarında dayanıb Bakıya gedən avtobusa minirdi, **yolüstü** Binədə düşürdü. (Elçin) Milisioner Səfərgilin dağlarında hər **addımbaşı** bir bulaq vardı. (Elçin) Güldəstə **gözucu** həyətdəki pəncərələrə baxa-baxa dedi:... (Elçin)

b) Axşamüstü, axşamçağı, axşamtərəfi, bayramqabağı, günaşırı və s. Tərəfləri zərf-zərf, zərf-isim, isim-zərf və isim-feil formasında olan və quruluşca ikinci növ ismi birləşməni xatırladan mürəkkəb zaman zərfləri. **Axşamçağı** gəlinin əri Kərbəlayı Qasım evə qayıdan kimi Tükəzban durdu ayağa və .... (Mirzə Cəlil) **Günaşırı** şüşəsini silib təmizlədiyi bu iki yüz voltluq lampa furqonun içini elə gur işıqlandırırdı,... (Elçin)

c) Əliboş, gözüyumulu, üzüqoylu, gözüyaşlı və s. birinci tərəfi mənsubiyyət şəkilçili ismin, əsasən, düzəltmə sifətlərlə birləşməsi nəticəsində yaranan mürəkkəb tərzi-hərəkət zərfləri.

d) Üzüyuxarı, üzüaşağı - birinci tərəfi mənsubiyyət şəkilçili isim, ikinci tərəfi yer zərfləri ilə formalaşan mürəkkəb yer zərfləri. Məsməxanım irəli çıxıb **üzüyuxarı** qalxmağa başladı;... (Elçin)

e) Az sayda da olsa birinci növ ismi birləşməni xatırladan **günorta**- mürəkkəb zaman zərfini, **bir** sayının **ara, arada, hərdən** sözlərinə qoşulmaqla yaratmış olduğu **arabir, aradabir, hərdənbir** mürəkkəb zaman zərflərini, **bir** sayının yönlük halda olan **baş, nəfəs** sözlərinə qoşularaq yaratdığı **birbaşa** (**birbaş**), **birnəfəsə** və **dabanbasma** şəklində olan mürəkkəb tərzi-hərəkət zəflərini qeyd edə bilərik.

Sən dayanma, **birbaş** get Qarabağa, orda Mirzə Qoşunəli Təbrizi adında bir möhtərəm şəxsi iksir qayırmağa məşğuldur. (Ə.Haqverdiyev) Muğdusi **hərdənbir** yarımçıq səqfə baxıb Usta Zeynalı yad edirdi. (Mirzə Cəlil) ... Molla Güləndam bacı onlara guş-huş ilə qulaq verib, **arabir** sual verərdi,.... (Y.V.Çəmənzəminli) ..., yəni **günorta** damın üstünə çıxıb gördükləri və eşitdikləri... (Elçin) Məmmədağa daha özünə gəlib quşxananın damından **birbaş** yerə- hamamdan nəm çəkmiş torpağın üstünə atıldı. (Elçin)

**1.2** ***-ba$^2$ bitişdiricisinin köməyi ilə yaranan mürəkkəb zərflər:***

a) Taybatay, üzbəüz, adbaad, kəndbəkənd, dilbədil, qarabaqara və s. tərəfləri isim və sifətlərin təkarı və -ba$^2$ bitişdiricisinin iştirakı ilə formalaşan mürəkkəb tərzi-hərəkət zərfləri. Meydan oxusaq da, çərxi-dövrana; Bəzən özümüzlə **üzbəüz** olduq. (B.Vahabzadə) Çünki onun peşəsi oğlunun əlindən tutub, **kəndbəkənd** gəzib saillik etmək idi. (Ə.Haqverdiyev) Məmmədağa qıza yaxınlaşıb bir müddət onunla **üzbəüz** dayandı, sonra soruşdu:... (Elçin)

b) Günbəgün, ilbəil, anbaan və s. tərəfləri zaman məzmunlu isimlərin təkrarı və -ba$^2$ bitişdiricisinin iştirakı ilə formalaşan mürəkkəb zaman zərfləri. Sökülüb-dağılır daşlar **günbəgün**; Sərhəd dirəkləri xəbərsiz oldu. (B.Vahabzadə) Düşündük, dərdimiz artdı **ilbəil**; Vaxtın damarını tuta bilmədik (B.Vahabzadə)

**2. Defislə yazılan mürəkkəb zərflərin struktur-semantik xüsusiyyətləri**

**2.1** ***Eyni sözlərin təkrarı ilə yaranan mürəkkəb zərflər:***

**2.1.1** ***Hər hansı bir şəkilçinin iştirakı olmadan eyni sözlərin təkrarı ilə yaranan mürəkkəb zərflər :***

a) Sadə isimlərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri: qapı-qapı, qoşun-qoşun, addım-addım, dil-dil, damla-damla və s. Ürəklər bu dərddən tüğyana gələr; Axar gözümüzdən yaş **damla-damla**. (B.Vahabzadə) Belə malı **qapı-qapı** gəzdirmək olmaz ki, (Y.V.Çəmənzəminli) Onlar sahildən **addım-addım** uzaqlaşırdılar (Elçin)

b) Sadə sifətlərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri: axmaq-axmaq, dərin-dərin, bərk-bərk, həzin-həzin, ağır-ağır və s. Sağ tərəfdən hacının övrəti əyləşib, əlində dəsmal, **həzin-həzin** hacı ilə keçirdiyi günləri yada salıb ağlayırdı. (Ə.Haqverdiyev) A balam, **axmaq-axmaq** danışmayın, bu kişilər siz dediyiniz adamlardan deyillər, niyə bu qədər **boş-boş** danışırsınız. (Mirzə Cəlil) Fəxrəddin **dərin-dərin** düşünəndən sonra bir ah çəkib dedi: .... (M.S.Ordubadi) Şaqqulu qabağında ağ parçaya bürünmüş gəlini görəndə ürəyi **bərk-bərk** döyündü. (Y.V.Çəmənzəminli) Yeriyir izdiham hey **ağır-ağır**; Yeriyir meydandan Dağüstü parka. (B.Vahabzadə)

c) Sadə miqdar saylarının təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri: bir-bir, beş-beş, on-on, yüz-yüz və s. Hacının mollası və yoldaşları **bir-bir** onun gözünün qabağından keçirdi. (Ə.Haqverdiyev) İmzalar atılır **bir-bir**, elə bil; Sevgi məktubuna qol çəkir onlar. (B.Vahabzadə) Onun çəkmələrinin içi qumla dolmuşdu; qayaya söykənib çəkmələrini çıxartdı və **bir-bir** içindəki qumu boşaltdı. (Elçin)

d) Sadə qeyri-müəyyən miqdar saylarının təkrarı ilə yaranan mürəkkəb miqdar zərfləri: az-az, çox-çox. Lakin o cür şəxsiyyətləri təbiət çox **az-az** yaradır. (M.S.Ordubadi) İndi həmin günlər, elə bil dünən idi və **çox-çox** uzaq görünən o illər əslində bir göz qırpımında gəlib keçdi. (Elçin) ..., amma Mirzoppa daha məhəllədə lap **az-az** görünürdü. (Elçin)

Y.Seyidov bildirir ki, az-az, çox-çox, bir-bir, üç-üç, beş-beş... Bunlar sözlərin (az, çox, bir, üç, beş sözlərinin) nitqdə təkrarla işlənməsidir, yəni dildə az sözü var, az-az sözü yoxdur. [5, s. 362] Bizcə, yuxarıdakı bölgüdə də qeyd etdiyimiz kimi, bu sözlər mürəkkəb zərflərdir.

e) Sadə zərflərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri: yavaş-yavaş, asta-asta, tez-tez və s. Tez-tez mürəkkəb zərfi semantik cəhətdən həm tərzi-hərəkət, həm də zaman zərfi ola bilir. Sonra at başladı **yavaş-yavaş** qabağa hərəkət eləməyə. (Mirzə Cəlil) Yemək vaxtı **tez-tez** ərinin üzünə baxıb, gülüb başını aşağı salırdı. (Ə.Haqverdiyev) Belə camaat arasında məşhur olmuşdu ki, yanına **tez-tez** azarlı da gətirirdilər. (Y.V.Çəmənzəminli) İpək yaylığıyla o, **asta-asta**; Silib eynəyini gözünə taxdı. (B.Vahabzadə) Xəzri isə **yavaş-yavaş** lap bərkiyirdi. (Elçin)

f) Sadə zaman zərflərinin təkrarı ilə yaranan mürəkkəb zaman zərfləri: gec-gec, axşam-axşam, sabah-sabah, gecə-gecə, səhər-səhər və s. ... Meyvə-tərəvəz köşkünə **səhər-səhər** təzə pomidor gəlmişdi və köşkün qabağına xeyli adam yığılmışdı. (Elçin)

**2.1.2** ***Leksik şəkilçili eyni sözlərin təkrarı ilə yaranan mürəkkəb zərflər:***

a) Düzəltmə sifətlərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri: acıqlı-acıqlı, hirsli-hirsli, iynəli-iynəli, dərdli-dərdli və s. Söhbət bu yerə çatdığı zaman başını qaldırıb **acıqlı-acıqlı** əmirə baxdı və ... (M.S.Ordubadi) ...Mirzoppa **yorğun-yorğun** evə gəldi,... (Elçin)

b) Düzəltmə zərflərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri: yenicə-yenicə, gizlicə-gizlicə, çəpəki-çəpəki və s. Mirzoppa bir az **çəpəki-çəpəki** ona baxdı,...(Elçin)

**2.2 Biri və ya hər ikisi qrammatik şəkilçi qəbul etmiş eyni sözlərin təkrarı ilə yaranan mürəkkəb zərflər:**

a) Üz-üzə, göz-gözə, səs-səsə, üst-üst, yan-yana, qol-qola, alt-alta və s. isimlərin və zərflərin təkrarı ilə birinci tərəf adlıq hal, ikinci tərəf yönlük hal formasında yaranan mürəkkəb tərzi-hərəkət zərfləri. Faytonçunu yola salıb, Əkbərlə **qol-qola** verib pilləkəndən yuxarı çıxdı. (Ə.Haqverdiyev) Cahıllar **səs-səsə** verib dedilər: .... (Mirzə Cəlil) Bu adətlər qızların kişilər ilə **üz-üzə** oturmasına imkan vermədiyindən, .... (M.S.Ordubadi) Qazanlar, qablar səliqə ilə **üst-üstə** qoyulmuş, ortadan pərdə çəkilmişdi. (Y.V.Çəmənzəminli) Furqonun gur işığı, divar boyu **yan-yana** düzülmüş tüfənglər,... (Elçin)

b) Gündən-günə, ildən-ilə, aydan-aya və s. birinci tərəfi çıxışlıq hal, ikinci tərəfi yönlük hal şəkilçili zaman məzmunlu isimlərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri.

c) Axşamdan-axşama, gecədən-gecəyə, sonradan-sonraya, haçandan-haçana və s. birinci tərəfi çıxışlıq hal, ikinci tərəfi yönlük hal şəkilçili zaman zərfləri və sual əvəzliklərinin təkrarı ilə yaranan mürəkkəb zaman zərfləri.

d) Başdan-başa, dildən-dilə, ağızdan-ağıza, doğrudan-doğruya və s. birinci tərəfi çıxışlıq hal, ikinci tərəfi yönlük hal şəkilçili isimlərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri. Anası sınamışdı, belə edərəkən, o ayı **başdan-başa** xoş keçirərdi. (Y.V.Çəmənzəminli) Amerika **başdan-başa**; Qara şübhəyə döndü (B.Vahabzadə) Qum təpənin üstündən pansionata tərəf bir cığır ağarırdı və bu cığırın sağ tərəfi **başdan-başa** zeytunluq idi. (Elçin)

e) Uzaqdan-uzağa, incədən-incəyə, doğrudan-doğruya və s. birinci tərəfi çıxışlıq hal, ikinci tərəfi yönlük hal şəkilçili sifətlərin təkararı ilə düzələn mürəkkəb tərzi-hərəkət zərfləri. Bu dəfə Məmmədağa **doğrudan-doğruya** hirsləndi:... (Elçin)

f) Təyini əvəzlik olan "**öz**" əvəzliyinin təkrarı ilə formalaşan birinci tərəf adlıq hal formasında, ikinci tərəf isə mənsubiyyət və yönlük hal şəkilçili mürəkkəb tərzi-hərəkət zərfi. Kərbəlayı bir də sakit oldu, yenə divarın dibində oturub, **öz-özünə** deyindi. (Y.V.Çəmənzəminli) Məsməxan **öz-özünə** bu sualı verdi və ayaq saxlayıb geri çevrildi. (Elçin)

**2.3 Əks mənalı sözlərin iştirakı ilə yaranan mürəkkəb zərflər**:

a) Gec-tez, əvvəl-axır, gecə-gündüz, səhər-axşam və s. zaman zərflərinin antonimliyi əsasında yaranan mürəkkəb zaman zərfləri. Bu uşaq **əvvəl-axır** alim olacaq. (Mirzə Cəlil) **Gec-tez** onlar Rey məmləkətini öz əllərinə alacaqlar. (M.S.Ordubadi) Böl, kağız üstündə, böl, **gecə-gündüz**; Torpağın üstünə dirəklər də düz; (B.Vahabzadə) Məmmədağa **gecə-gündüz** Abşeron yollarında maşın sürə-sürə bəkimiş,... (Elçin) ...Mirzoppa ilə danışmaq istəmirdi, amma **əvvəl-axır**, onsuz da, üzbəüz gələcəkdi;... (Elçin)

b) Başdan-ayağa, əvvəldən-axıra, aşağıdan-yuxarı, yuxarıdan-aşağı, altdan-yuxarı və s. birinci tərəfi çıxışlıq hal, ikinci tərəfi yönlük hal şəkilçili isimlərin və ya yer zərflərinin iştirakı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri. Sadıq kişi **altdan-yuxarı** baxırdı Usta Hüseynin üzünə. (Mirzə Cəlil) ...ona elə gəlirdi ki, **başdan-ayağa** bir miskinlik içindədi; sonra başa düşdü ki,... (Elçin) ... və qız üzünü çevirib altdan-yuxarı bu göy gözlərə baxdı;... (Elçin)

c) Sağa-sola, dala-qabağa, sola-sağa və s. sözlərin yönlük hal şəkilçisi ilə işlənməklə yaratdığı mürəkkəb yer zərfləri. Bundan başqa müasir dilimiz üçün arxaikləşmiş olan şəkilçinin iştirakı ilə formalaşmış olan "ora-bura" mürəkkəb yer zərfi də vardır ki, bu mürəkkəb zərfin tərəflərini sabitləşmiş formada götürürük.

d) Q.Kazımov qeyd edir ki, az və çox sözlərinin ayrılıqda təkrarı və ya birlikdə işlənməsi ilə az-az, çox-çox, az-çox mürəkkəb miqdar zərfləri yaranır. [6,s.331]

Y.Seyidov yazır: " Həddən artıq, az-çox, bir-iki dəfə, bir qədər, kifayət qədər, azdan-çoxdan, bir dəfə, yüz dəfə... Bunlar leksik vahidlər deyil, nitq vahidləri olub, hərəsi iki və ya üç leksik vahiddən ibarət birləşmədir. Onları bu formada nəinki zərfə, ümumən bu və ya digər nitq hissəsinə daxil etmək olmaz".[5,s.362]

Ümumiyyətlə, dilimizdə mürəkkəb miqdar zərfləri olduqca azdır və qeyd olunan **az-çox** sözü, fikrimizcə, yalnız qeyri-müəyyən miqdar sayıdır, feilə (hərəkətə) aid olduğu zaman miqdar (kəmiyyət) zərfi yox, kəmiyyət zərfliyi olur.

**2.4 Yaxınmənalı sözlərin iştirakı ilə yaranan mürəkkəb zərflər:**

a) Başdan-binadan, əlli-ayaqlı, yerli-yataqlı, əməlli-başlı, dinməz-söyləməz, lal-dinməz və s. yaxınmənalı sözlərin birgə işlənməsi ilə yaranan mürəkkəb təzri-hərəkət zərfləri. Sadıq kişi **dinməz-söyləməz** oturub başını əymişdi aşağı. (Mirzə Cəlil) Məsməxanım **lal-dinməz** Məmmədağaya baxırdı. (Elçin) Xanım qarı əvvəlcə furqonu **əməlli-başlı** nəzərdən keçirdi. (Elçin)

b) "Ara-sıra" sözünün birgə işlənməsi ilə yaranan mürəkkəb zaman zərfi. Ancaq çinarın təpəsində **ara-sıra** "haq-haq" çağıran haq quşu gecə görüşlərinin səhnəsini təzə-təzə açmağa başlayırdı. (M.S.Ordubadi)

c) "Yan-yörə" yaxınmənalı iki sözün iştirakı ilə formalaşan və ikinci tərəfi müxtəlif qrammatik şəkilçilərlə işlənərək yaranmış olan mürəkkəb yer zərfi. Görürsən heç birini də tapa bilmirsən, ancaq paxıllığından qudurmuş itə dönüb, **yan-yörəni** dalayırsan.(Y.V.Çəmənzəminli)

**2.5 Tərəflərindən biri və ya hər ikisi ayrılıqda işlənə bilməyən sözlərin iştirakı ilə yaranan mürəkkəb zərflər:**

a) Tələm-tələsik, yorğun-arğın, dizin-dizin, səssiz-səmirsiz, oğrun-oğrun, uzun-uzadı və s. sözlərin iştirakı ilə formalaşan mürəkkəb tərzi-hərəkət zərfləri. Bir ağrı tutdu ki, **dizin-dizin** sürünüb əlimlə ot yoldum. (Ə.Haqverdiyev) Öz evlərinə qapanıb **xısın-xısın** ağlayanların sayı, küçələrə çıxıb şadlıq edənləri sayından bir neçə qat artıq idi. (M.S.Ordubadi) Dönür Baba müəllim **yorğun-arğın** evinə; Şütüsə də güllələr onun dörd dövrəsindən. (B.Vahabzadə) Məsməxanım hər gecə **oğrun-oğrun** onlara baxırdı... (Elçin) Yad kişi **tələm-tələsik** şalvarını geyib əkilmişdi,... (Elçin) Molla bacının hüzurunda çox vaxt mütəllimələr **uzun-uzadı** nağıl danışırdılar və .... (Y.V.Çəmənzəminli)

b) M.Hüseynzadə bildirir ki, "az" zərfinə onun təhrif forması olan "maz" ünsürünü əlavə etməklə mürəkkəb miqdar zərfi yaranır.[1,s.217] Q.Kazımov isə "az-maz" sözünün mürəkkəb miqdar-dərəcə zərfi olduğunu yazır.[6,s.332] **"Az-maz"** formasında işlənən mürəkkəb miqdar zərfi kimi qeyd olunan nümunə, bizcə, qeyri-müəyyən miqdar sayıdır.

c) Par-par, taq-taq, şır-şır, xısın-xısın, hönkür-hönkür və s. təqlidi sözlərin təkrarı ilə yaranan mürəkkəb tərzi-hərəkət zərfləri: Öz evlərinə qapanıb **xısın-xısın** ağlayanların sayı, küçələrə çıxıb şadlıq edənləri sayından bir neçə qat artıq idi. (M.S.Ordubadi) ... alüminium örtüyü gün işığında **par-par** parıldayan tir furqonunu Bakıya... (Elçin) Səba xanım sevindiyindən **hönkür-hönkür** ağladı və ... (M.S.Ordubadi)

**2.6** Yönlük hal şəkilçili "**bir**" sayına digər sayların qoşulması ilə mürəkkəb miqdar zərfləri yaranmış olur: birə-beş, birə-on, birə-yüz və s.

**3. Ayrı yazılan mürəkkəb zərflərin struktur-semantik xüsusiyyətləri**

Dilimizdə ayrı yazılan mürəkkəb zərflər:

a) Q.Kazımov "bir" sözünün "az, çox, xeyli, qədər" sözləri ilə birləşərək bir az, bir çox, bir xeyli, bir qədər mürrəkkəb miqdar zərfləri yaratdığını bildirir. [6,s.331] Ayrı yazıldığı qeyd olunan mürəkkəb zərflərin bu qismi, bizcə, mürəkkəb qeyri-müəyyən miqdar saylarıdır. Bu mürəkkəb saylar söz birləşməsi və ya cümlə daxilində isimə aid olduğu halda təyin, feilə aid olduqda isə kəmiyyət zərfliyi ( zərf yox ) olur.

b) M.Hüseynzadə qeyd edir ki, müxtəlif saylarla "dəfə" sözünün birgə işlənməsi nəticəsində mürəkkəb kəmiyyət zərfləri yaranır.[1,s.216] Q.Kazımov da miqdar saylarının "dəfə, kərə" sözləri ilə birləşməsindən mürəkkəb miqdar zərfləri yarandığını qeyd edir.[6,s.331] Zənnimizcə, bu cür formalaşıb ayrı yazılan mürəkkəb zərflər sırasında verilən sözlərin ikinci tərəfi leksik mənaya malik deyil: ilk dəfə, bir dəfə və s. Fikrimizcə, ayrı yazılan mürəkkəb zərflərin bu qrupunda tərəflərin birlikdə sabitləşməsi nəticəsində və semantik baxımdan mürəkkəb kəmiyyət zərfləri yox, mürəkkəb zaman zərfləri yaranmış olur.

c) Ayrı yazılan bir qrup mürəkkəb zərflər də vardır ki, bunlarla bağlı da bir sıra problemli məsələlər var. Bu mürəkkəb zərflər müəyyən cümlə daxilində mürəkkəb zaman və yer zərfləri, digər hallarda isə birinci növ təyini söz birləşməsi hesab olunur və tərəfləri ayrı təhlil olunur. Fikrimizcə, bu birləşmələr semantik cəhətdən sabitləşərək mürəkkəb zaman və yer zərfləri kimi formalaşmışdır: hər gün, hər il, bu gün, bir gün, hər yer, hər yan, hər tərəf və s. Digər hallarda isə semantikada bütövlük yoxdur və həmin formalarda tərkib hissələrini təşkil edən tərəflər öz müstəqil mənalarında işlənir, yəni zərf olmur və həmin hallarda birinci növ təyini söz birləşməsi olması, cümlə üzvü kimi ayrı-ayrı təhlil olunması, fikrimizcə, heç bir problem yaratmır. **Bu gün** axşama kimi Usta Zeynalın arvadı ərinin paltarlarını yuyub qurutmağa məşğul oldu. (Mirzə Cəlil) **Hər gün** arı pətəyi kimi qaynaşan saray həyatı tamamilə sönmüşdü. (M.S.Ordubadi) **Bir gün** Sitarə gördü ki, evə iki-üç arvad gəlib. (Y.V.Çəmənzəminli) Qoca Nəbatinin eşqi, arzusu, **O gün** batmadımı Arpa çayında ? (B.Vahabzadə)

d) Ayrı yazılan bir qrup mürəkkəb zərflər də vardır ki, bunlar yaxın mənalı zaman zərflərinin birgə işlənməsi nəticəsində ortaya çıxıb mürəkkəb zaman zərfi yaratmış olur: səhər tezdən, sabah ertə, sübh tezdən Əhməd **sübh tezdən** gördü Güləndam yoxdur. (Ə.Haqverdiyev) Sübh tezdən nədənsə tez oyandım. (Mirzə Cəlil) - **Sabah ertə** gələrsən bulağın üstə, qız suya gələcək. (Y.V.Çəmənzəminli)

**Ədəbiyyat**

1. Hüseynzadə M.H. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Şərq-Qərb", 2007, 280 səh.
2. Müasir Azərbaycan dili. Morfologiya, II cild, Azərb. EA nəşri, Bakı, "Elm" nəşriyyatı ,1980, 512 səh.
3. Cəfərov S.A. Müasir Azərbaycan dili. Leksika. Bakı, "Şərq-Qərb", 2007, 192 səh.
4. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası, II h. Bakı, 2016
5. Seyidov Y.M. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, Bakı Universiteti nəşriyyatı, 2002, 371 səh.
6. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Elm və təhsil", 2010, 400 səh.

**Structural-semantic features of compound adverbs**

**Summary**

The study of the formation of compound adverbs shows that compound adverbs are formed by syntactic and syntactic-morphological ways. Compound adverbs as a group of words are distinguished by their richness in adverbs. No suffix plays a role in connecting syntactically compound adverbs, and it is mainly formed by repeating the same words. Syntactically and morphologically, we are witnessing the formation of compound adverbs formed from the repetition of the same words with the participation of grammatical suffixes, as well as from the combination of deifferent words with the particapation of grammatical suffixes. Among the types of meaning of compound adverbs, we observe that the compound behavior-action adverbs are in the majority. Many issues related to the types of compound adverbs have been clarified. However, the problems with compound adverbs written separately have not yet been fully resolved in our linguistics.

**Структурно-семантические особенности сложных наречий**

**Резюме**

Изучение образования сложных наречий показывает, что сложные наречия образуются синтаксическим и синтаксически-морфологическим путями. Сложные наречия как группа слов отличаются богатством наречий. Никакой суффикс не играет роли в соединении синтаксически составных наречий, и он в основном образован повторением одних и тех же слов. С синтаксической и морфологической точек зрения мы являемся свидетелями образования сложных наречий, образованных повторением одних и тех же слов с участием грамматических суффиксов, а также сочетанием разных слов с участием грамматических суффиксов. Среди типов значения составных наречий мы наблюдаем, что составные наречия поведение-действие в большинстве. Многие вопросы, связанные с типами сложных наречий, были прояснены. Тем не менее, проблемы с составными наречиями, написанными отдельно, еще не полностью решены в нашей лингвистике.

**Rəyçi: prof. S.Abdullayeva**

Göndərilib: 07.05.2020 Qəbul edilib: 09.05.2020